# Rəşad Məcid yaradıcılığı ədəbi tənqidin diqqətində



■ Şəfəq Nasir

**Bəzən onlarla irihəcmli tədqiqat əsəri ilə tanışlıq bizə mövzunun əhatə olunması baxımından dolğun təsir bağışlamır. Yəni əsərdə xeyli sayda mənbə-məxəzlərə müraciət olunsa da, burda ədəbi tənqidin meyarı, əsas göstəriciləri öz əksini tapmadığından müəllifin məqsədi aydın görünmür. Mövzudan kənar fikirlərin baş alıb getməsi əsərin əsas qayəsini arxa plana keçirir. İşin elmi yeniliyinin, ciddi araşdırmanın, özünəxas üslubun olmaması və problemin öz həllini tapmaması əsəri uğursuzluğa düçar edir.**

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, onlarla tədqiqat əsərlərinin müəllifi akademik İsa Həbibbəylinin yeni - "Bütün yönləri ilə yaradıcı" əsəriylə tanış olanda, ədəbiyyata böyük təfəkkürün işığında yanaşmanın ədəbi tənqidimizə qazandırdığı dəyərləri bir daha dərindən duydum. Kitabı vərəqləyərkən qarşımda forma və məzmunca yeni bir elmi araşdırma gördüm. Müqəddimə ilə yekun da daxil olmaqla doqquz bölməni əhatə edən bu əsər ilkin olaraq məndə belə bir fikir doğurdu ki, İsa Həbibbəylinin Rəşad Məcid yaradıcılığına bələdliyi, onun ictimai-ədəbi fəaliyyətini sərf-nəzər etməsi bu ədəbi ömrə olduqca ciddi və əhatəli yanaşmanın təzahürüdür. Ədəbiyyatşünas-alim Rəşadın yaradıcılığından əxz etdiyi fərdi xüsusiyyətləri ədəbi tənqidin predmeti etməyi, mətnlərin içərisindən görünən düşüncə adamının obrazını yaratmağı vacib sanmışdır. Bunlar təbii ki, zaman-zaman ədəbiyyat tariximizin yetişdirdiyi simaları gələcək nəslə tanıtmaq, ədəbi yaddaşa ötürmək yükünü şərəflə daşımaq missiyasıdır. Başqa bir tərəfdən, İ.Həbibbəylinin belə bir monoqrafik əsəri ərsəyə gətirməsi ədəbi tənqidin problemlərinə akademik yanaşmanın ziyalı təəssübkeşliyindən yaranıb.

Belə düşünürəm ki, yazıçı-publisist, şair Rəşad Məcidi mətbuat-ədəbiyyat adamları yetərincə tanıyır, çoxçeşidli yaradıcılığına da bələddirlər. Bu gün bu yaradıcılığın mahiyyəti ictimai şüura təsir etmək gücündə olsa da, nəsillər dəyişdikcə bunlar unudulur. Elə ədəbiyyatın kəsb etdiyi milli-mənəvi dəyərlərin yaşamasından ötrü ədəbi tənqidin belə əsərləri tədqiq edərək, ədəbiyyatşünaslıqda yerini və rolunu göstərməsi olduqca vacibdir.

"Bir yüngülvari müqəddimə"də İsa müəllim bu yaradıcılığın içində gəzişmələr etmiş, "ədəbiyyat cəmiyyətində" Rəşad Məcid yaradıcılığını "bütün yönləri ilə" təhlil süzgəcindən keçirərək ortaya yığcam, eyni zamanda sanballı bir tədqiqat əsəri qoymuşdur. Burda yazıçının yaradıcılığı dövrlər üzrə qruplaşdırılmış və hər dövrün ədəbi məhsuluna özünəxaslıq prizmasından yanaşılmışdır.

Müəllif dövrlərə böldüyü yaradıcılıq yolunu səciyyəvi başlanğıcdan inkişafa aparan xüsusiyyətləri, bütün janrlarda özünüifadəyə söykənən amilləri, bədii-publisist düşüncəni, ciddi təhlil obyekti kimi aktuallıq prizmasından işıqlandırır.

İsa müəllim tədqiqat işığını Rəşadın 18-20 yaşlarından bədii yaradıcılığa marağının poetik düşüncəsində, gənclik təxəyyülündə xəfif rənglərdən yaratdığı mənzərəyə salmış, bütövlükdə əsərlərini ədəbiyyatşünas-alim baxışları ilə sərf-nəzər etmişdir. Onun ilk yaradıcılıq dövrünün hiss-həyəcanlarına həssaslıq göstərmiş, ustad şairlərin (M.Araz, Ə.Kərim...) ədəbi təsirilə şeirlər yazdığını və bu lirik-ictimai məzmunlu nümunələrdə lirik "mən"in düşüncəsində yetişib-formalaşdırdığı ədəbi məhsullarına elmi-nəzəri baxışlarını sistemli şəkildə ifadə etmişdir. Ədəbiyyatşünaslıqda, ədəbi tənqiddə təhlilin canı olan müqayisə, ümumiləşdirmə, fərdiləşdirmə prinsipləri mövzunun bütün istiqamətlərdən tədqiqinin başlıca meyardı. Akademikin araşdırmasının əsasını da bu xüsusiyyətlər təşkil edir. R.Məcidin yaradıcılığında oxşarlıqları həssaslıqla duyan müəllif bunun kökündə dayanan ədəbi təsirin təbiiliyinə də nəzər yetirir. Nədir bu təbiilik?

"Nəzərə almaq lazımdır ki, bədii yaradıcılıqda əsas məsələ cavan yaradıcı şəxsin bu təbii prosesi keçib, daha tez özünü ifadə edə bilməsindən ibarətdir. Və Rəşad Məcid də böyük ədəbiyyata gedən yolun başlanğıc mərhələsinin öyrənmə-təsirlənmə dövrünü yaşayaraq qısa müddət ərzində şeirdə öz sözünü deməyi bacarmışdır". Yəni müəllif R.Məcidin getdikcə bu təsirlərdən ayrılaraq, şeirdən-şeirə təkmilləşərək öz cığırına, yoluna düşdüyünü mətnlərdən aldığı nümunələrlə diqqətə çatdırmışdır.

Əsərdə mənə, ümumən ədəbi tənqidimizə maraqlı görünən tərəflər, xüsusi məqamlar yetərincədir. İsa müəllimin ədəbiyyata qayğısı, ədəbi tənqidə ciddi və davamlı münasibəti, tədqiqatın ağır zəhmətinə qatlaşaraq təhlilin yeni üslub, metodları ilə işləməsi, ictimai fikrin inkişafı prosesinə xidmətinin göstəricisidir. Belə bir yığcam, eyni zamanda sanballı əsərin bir çox aspektdən işlənilməsi, həm də sənətkarın ədəbi imkanlarının üzə çıxarılması baxımından da təqdirəlayiqdir. Tədqiqatçı bununla onu sübut etdi ki, söz-fikir adamının ədəbi yaradıcılığının nəzəri cəhətlərini, elmi yeniliyini, xarakterini yığcam formada, özünün tempi-ahəngi ilə təhlil-tədqiq etmək də mümkündür.

İ.Həbibbəyli müqəddiməsində və sonrakı bölmələrdə "10 sentyabr" hekayəsinin Rəşadın yaradıcılığında "nasirlik fəaliyyəti qazan"ması fikrini geniş planda işıqlandırsa da, təhlilin miqyası əsla bir hekayənin kölgəsində qalmamış, bu yaradıcılığın başqa bir qanadı olan poeziyanın özəlliklə dolu gözəlliyinin səciyyəsini maraqlı keçidlərlə təqdim etmişdir. Bu bənzətmə-təhlilə fikir verin: "Rəşad Məcid üçün şeir "bir dolu ürəyin püskürmə çağıdı, "dikəlib asfaltı deşən bənövşə"dir, "sinədə boğmaq olmayan qəfil hönkürtü" kimi təbii proseslərin nəticəsində yaranmış bədii düşüncənin ifadəsidir". Göründüyü kimi, belə bir maraqlı, lirik ovqatda yaranmış təhlilin obyekti, ana yatağı Rəşadın poeziya gülüstanıdır.

Rəşad Məcidin ədəbiyyat adamı olaraq böyük həyata gəlişi özünün xatırlaması ilə olduqca sadə təsir bağışlayır. "Yazıçı tənqidi: Esselər" mənim də böyük maraqla oxuduğum məqaləsini yadıma saldı. Və gördüm ki, bu məqalədə ədəbi tənqid elementləri Rəşadın elmi təfəkkürə malik olduğunu göstərir.

Xatırladım ki, ötən il Rəşad Məcid bir maraqlı əsərini, "Dəlicəsinə" kitabını ictimai-ədəbi fikrin diqqətinə təqdim etməklə yaradıcı mühitdə bir rezonans yaratdı. Və bu kitab yaşından, ictimai mövqeyindən asılı olmayaraq, çoxluğun diqqətini çəkdi, mətbuatda əsər haqqında maraqlı fikirlər səsləndi. "Dəlicəsinə sevə bilsək" məqaləsində mən də Rəşadın yaradıcılığına həmkar kimi, ədəbiyyatşünas nəzərlərilə münasibətimi bildirdim. Fikrin bu məqamında bunacan dediklərimlə səsləşdiyindən həmin yazıdan bəzi fikirləri xatırlamağı vacib sayıram: "Rəşadın yazılarında dilin sadəliyi, fikrin sanbalı, müşahidələrin itiliyi, hadisələrə çevik publisist münasibəti, qərəzsizliyi və bu sıradan çox xüsusiyyətləri onun ictimai-ədəbi mühitdə kifayət qədər tanınmasını şərtləndirir. O, yaşadıqlarının içindən görünən ovqat adamı kimi də maraqlıdır. Burda müəllif tarixi məqamlara həssaslıqla yanaşmış, mövzunu xarakterindən irəli gələn tamlıqla, yazı manerasına uyğun bir üslubda təqdim etmişdir. Bunun başlıca səbəbi müəllifin, hadisələrin mərkəzində olması, müşahidələrinə doğru mövqedən münasibət bildirməsidir. O, yazılarında elə keçidlər edir ki, burda soyuq mühakiməylə araşdırılan məsələlərə, ədəbi priyomlara, çevik, analitik çözümə heyrət etməyə bilmirsən. Dildə də, əməldə də yekrəngliyi müəllifin öz peşəsində səbatlı, dəqiq olmasından irəli gəlir. O, ədəbiyyat adamı kimi dünəndən bu günə uzun, həm də uğurlu bir yol qət etmişdir. Oxucuya maraqlı və inandırıcı görünən də məhz yazıçının yaşadıqlarına ictimai məzmun verə bilməsidir". Bu fikirləri yenidən səsləndirməkdə bir nüansa da diqqət yetirilməsini istəyirəm: əgər "Dəlicəsinə" haqqında mənim və başqalarının yazılarında müəllifin əsasən ictimai mövqeyi, naşirlik fəaliyyəti, şəxsi keyfiyyətləri tədqim edilmişdirsə, İsa müəllimin elmi araşdırmasında hələ heç kimin cəhd etmədiyi, bəlkə də görmədiyi cəhətlər, bu ətrafda düşünmədiyi məqamlar bir ədəbiyyatşünas-alim təfəkkürünün işığında ümumilik-fərdilik prizmasından nəzəri təhlilə cəlb edilmişdir.

Şeirlərin ruhunun göz-könülə, düşüncəyə axan "ağ işıq"ı təhlil predmeti kimi çox uğurludur. İsa müəllim, məhz şairin içində tapındığı bir işığın şeirlərə süzüldüyünü mətnlərin özündən seçib-sonalayıb aydınlığa çıxarmışdır. Bu şeirlərdə çeşidli məna çalarlarının "poetik hadisə" olduğunu dəyərləndirmiş, "onun təqdimatında ağ işıq daha effektlidir", deyərək bu lirik-epik nümunələri, yaradıcılığındakı fərqliliyi, özünəməxsusluğu arayıb-darayıb oxucuya təqdim etmişdir. Müəllif bu cür vətəndaşlıq qazanmış şeirlərdə "zahirən" görünməsə də, hiss olunacaq tərzdə "süjet əlamətləri", "nağıl-təhkiyə"ni maraqlı predmet kimi təhlil edir. Və bütün bunları şairin bənzərsiz yaradıcılıq uğurları kimi dəyərləndirir. Şeirlərinin adlarının "epik təhkiyə, danışıq kimi səslənməsi" də bu poeziyanın ideya-mahiyyətini ifadə edir. Müşahidə-müqayisələrin, orijinal görünən təhlilin necə bir yeni düşüncə və baxışlara tapındığı aydın görünür. İsa müəllimin təqdimatından o da bəlli olur ki, Rəşad ədəbi mühitin bir sıra hadisələrini görüb-duydyğu təki, yüksək erudisiyası, ədəb-ərkanıyla, müsahibiylə üzbəsurət söhbətləşirmiş kimi səmimi ifadə edə bilən yaradıcı şəxsdir. Zənnimcə, bu tip monoqrafik tədqiqat əsərləri ədəbi personalı bütün prizmalardan təqdim etməyin faydalı üsuludur. Mənə görə, Rəşadın şeirlərinin ahəngində, rəngli təsvirində ipək ştrixlər var...



Əslində Rəşad Məcidin publisistikası problemləri etibarilə qəzetçilikdən, ifadə vasitələri baxımından isə yaradıcılıqdan gəlir. Rəşad Məcidin publisistikasında məsələnin hər iki tərəfinin özünəməxsus ağırlığı vardır. Məhz həmin özünəməxsusluqların bir bütöv, tam halında ayrılmaz ifadəsi Rəşad Məcidin publisistikasındakı möhürüdür". Budur, özünəməxsus yaradıcılıq xüsusuyyətləri! Bu özünəməxsusluq təkcə publisistikasında deyil, "Roman" və poetikası"nda, nəsrində, esse-təəssürat-qeydlərində yeni görünən elmi-nəzəri baxışlarda tədqiq olunur.

Tədqiqatçının bölmələrə yekun fikri də özünəməxsusdur. Bu da əsərin ənənəvilikdən uzaq olan fərqli üsluba və formaya malik olduğunu göstərir. Əsərin sonuncu, "Bütün yönləri ilə yaradıcı" bölməsi də indiyə qədər elmi-monoqrafik əsərlərdə görməyə adət etdiyimiz nəticədən diqqət yetirdiyi detalları ilə fərqlənir. Bir ədəbi şəxsiyyətin çoxçeşidli yaradıcılığında bəlkə də çoxluğun sezmədiyi, görüb-duymadığı xüsusiyyətləri ilk dəfə İsa müəllim ədəbiyyatşünas təfəkkürü, məntiqi mahiyyətilə təhlil edib. Rəşad Məcidin yaradıcılığı bütün istiqamətlərdən, ən əsası da sənətkarlıq baxımından tədqiq olunaraq cəm halında yekunlaşdırılıb. Və sonda İ.Həbibbəyli oxucu düşüncəsini hələ çox uzaqlara aparacaq bu yaradıcılıq yolunun "qayə"sini belə dəyərləndirib: "Bu böyük qayə aydın, işıqlı və mənalı bir amalın petik ifadəsi, gerçək bir vətəndaşlıq duyğusunun bədii əks-sədası, müəyyən olunmuş həyat yolunun mühüm bələdçisidir".